**Nağdsız ödənişlərin stimullaşdırılması sahəsində beynəlxalq təcrübəyə xüsusi diqqət yetirilməlidir**

Azərbaycan-Amerika Ticarət Palatasının (AMCHAM) siyasət və hüquq məsələləri üzrə koordinatoru

Şahid Şükürov nağdsız ödənişlərdən istifadə sahəsində beynəlxalq təcrübədən, dünya ölkələrində nağdsız ödənişlərin tətbiqi istiqamətində həyata keçirilən tədbirlərdən söz açmışdır:

- Müzakirə edilən mövzu olduqca aktualdır. Bildiyimiz kimi, regional təşkilatlar və ayrı-ayrı dövlətlər tərəfindən dünyada nağdsız ödənişlərə keçid qarşıya məqsəd kimi qoyulur. Ötən il nəşr edilmiş «Dünyada ödənişlər hesabatı»nda əksini tapmış məlumata görə, son illər dünyada nağdsız ödənişlərin həcmi artmaqdadır. 2009-cu ilə nisbətən 2010-cu ildə belə ödənişlər 7% artaraq 280 milyard dollar təşkil etmişdir və bunun 80%-i inkişaf etmiş dövlətlərin payına düşür. ABŞ nağdsız ödənişlər üzrə dünya lideridir və onun payı dünyadakı nağdsız ödənişlərin 40%-i qədərdir. İkinci yerdə ümumi nağdsız ödənişlərin 21%-nin həyata keçirildiyi avrozona gəlir. Hesablamalara görə, 2020-ci il üçün Avropa Birliyi ölkələrində ümumi hesablaşmaların 30%-i nağdsız aparılacaqdır. Bununla belə, vaxtla ifadə etsək, Avropa Birliyi ABŞ-dan təqribən 10 il geri qalacaqdır. Məlumat üçün bildirim ki, Avropa Birliyində nağdsız ödənişlər bazarının aparıcı dövlətləri Böyük Britaniya, Almaniya və Fransadır (2009-cu ildə bu ölkələrin hər birində 15 milyard avro məbləğində nağdsız ödəniş aparılmışdır).

Dünya üzrə nağdsız ödənişlərdə ən üstün tutulan vasitə plastik kartlardan istifadədir. «Dünyada ödənişlər hesabatı»nın müəllifləri bu seqmentin təqribən 10% artdığını yazırlar. Nağdsız ödənişlərin təqribən 60%-i kart ödəmələrinin payına düşür. Dünyada elektron hökumətin, elektron ticarətin (elektron ödəmələrin) və mobil ödəmələrin tətbiqi də nağdsız ödənişlərin artımına imkan yaratmışdır.

Hesablamalara görə, Avropa Birliyi avronun nağd dövriyyəsini azaltmaqla illik əlavə 18-21 milyard avro qazana bilər.

Əlbəttə, nağd dövriyyəni azaltmağın reallaşdırılması üçün müxtəlif tənzimləyici vasitələr vardır və ayrı-ayrı ölkələr buna fərqli yanaşırlar. Məsələn, Niderlandda banklar və pərakəndə satış subyektləri nağddan istifadə sahəsində ümumi strategiya hazırlamaq qərarına gəlmişlər. Bəzi pərakəndə satış mərkəzləri 2014-cü ildə satışı yalnız nağdsız formada aparacaqlarını bəyan etmişlər.

Azərbaycanın nağdsız ödənişlərin ölkə iqtisadiyyatındakı çəkisinin artırılması üçün kompleks tədbirlər görməsi üçün, dünyada olduğu kimi, banklar, dövlət orqanları, təsərrüfat subyektləri öz üzərinə düşən vəzifələri yerinə yetirərəkən birgə fəaliyyət göstərməlidirlər. Texnologiya dili ilə desək, müəyyən interfeys yaradılmalıdır ki, birgə strategiya və bu strategiyaya uyğun tədbirlər həyata keçirilsin.

Hesab edirik ki, dünya təcrübəsinin öyrənilməsi yolu ilə daha səmərəli nəticələr əldə edə bilərik. Təşkilatımız bu sahədə hökumətə öz imkanları çərçivəsində dəstək göstərməyə və əməkdaşlığa hazırdır. Biz, eyni zamanda, mətbuatla, o cümlədən «Vergilər» qəzeti ilə mütəmadi olaraq əməkdaşlıq etməkdə maraqlıyıq.